**Bioloji fəallığa malik qida əlavəsinin istifadəsi üzrə təlimat**
**(istehlakçılar üçün məlumat)**

*Bu məhsul bioloji fəallığa malik qida əlavəsidir. Dərman vasitəsi deyildir.*

**SANUSLAK** kapsullar

**Tərkibi**
Hər bərk jelatin kapsulun tərkibində:
*Təsiredici maddələr:*
Lactobacillus rhamnosus...............................1 milyard kfv
Lactobacillus reuteri......................................1 milyard kfv
Lactobacillus acidophilus...............................1 milyard kfv
*Köməkçi maddələr*: fruktooliqosaxarid, laktoza.

**Xüsusiyyətləri**
**Sanuslak** normal bağırsaq florasının normallaşması və dəstəklənməsi üçün xüsusilə hazırlanmış probiotiklərin kombinasiyasıdır. Tərkibi adətən sağlam insanların bağırsağında mövcud olan üç əsas faydalı bakteriyalardan ibarətdir. Bu bakteriyalar bağırsaq pozğunluqlarını aradan qaldıraraq bağırsaq florasını bərpa etməyə, həmçinin sinir və immun sisteminin sağlamlığını dəstəkləməyə kömək edir.

**İstifadəsinə göstərişlər**
- disbakterioz;
- kəskin ishal;
- residivləşən Clostridium difficile infeksiyası;
- yoğun bağırsağın qıcıqlanma sindromu;
- bağırsağın iltihabi xəstəlikləri;
- "səyahət" ishalı;
- antibiotiklərlin qəbulu ilə əlaqəli ishal.

*Xəstəliklərin müalicəsi məqsədi ilə istifadə edilə bilməz.*

**Əks göstərişlər və əlavə təsirlər**
- Preparatın hər hansı komponentinə qarşı yüksək həssaslıq;
- Göbələk əleyhinə preparatlarla eyni zamanda istifadə olunmamalıdır. Hamiləlik və laktasiya dövründə istifadəsi zamanı ehtiyatlı olmaq lazımdır.

*Hamiləlik və laktasiya dövründə, xəstəlik və ya dərman istifadəsi zamanı həkimlə məsləhətləşin.*

**İstifadə qaydası və dozası**
5 yaşdan 10 yaşa kimi uşaqlara: 1 kapsuldan gündə 1 dəfə;
10 yaşdan böyük uşaqlara və böyüklərə: 1 kapsuldan gündə 2 dəfə.
*Tövsiyə edilən sutkalıq dozanı keçməyin. Qidaya bioloji fəal əlavələr tam dəyərli və balanslaşdırılmış qidalanmanı əvəz etməməlidir.*

**Buraxılış forması**
10 kapsul blisterdə. 3 blister içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
Sərin, quru, günəş şüası olmayan və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
2 il.

**İstehsalçı**
**BION CORPORATION LTD.**
London, Böyük Britaniya
www.bioncorporation.com